

**Vahid Nadiroğlu Ordubadın Əndəmiç kəndindəndir. Vətəndən uzaqlarda yaşayır, yazır-yaradır. 2.02.2020 şairin doğum günü idi. Ona can sağlığı arzlayır, yeni yaradıcılıq uğurları diləyirəm.**

**Əziz oxucular Sizə Vahid Nadiroğlunun yeni şeirlərin təqdim edirəm.**

**Fərqanə Mehdiyeva**
**"Ulduz" jurnalının Poeziya şöbəsinin redaktoru**

***Vahid Nadiroğlu***

## *Təcnis*

Fərəhimdi, sevincimdi gəncliyim,
Qara saçım niyə erkən ağardı.
Bura kimi min rəng çaldı taleyim,
Bundan belə olacaqmı, ağ ardı?

Sadəliyim əldən aldı dincliyi,
Bacarmadım xəbisliyi, bicliyi,
Göründü tam, yaxınların içliyi,
Eh, hamısı bu üzümə ağardı.

Qoy el versin bu Vahidə qiyməti,
Minnətsiz çəkəcək hər əziyyəti,
Kiminə ağadır, varı dövləti,
Mənim də içimdə Söz ağa vardı.

## *Ürəkdə tar çalır*

İllər ötür, ömrümüzə çən gəlir
Axışıb gedirik, zamanla birgə
Saç ağarır, yavaş-yavaş dən gəlir,
Ürəkdə tar çalır, kamanla birgə.

Belə ömür bəs eləyər yarı da,
İntizarda çox saxladım yarı da,
Doğmalar atdılar məni yarıda,
Arzular saraldı, samanla birgə.

Qayğı çoxaldıqca yüküm şələdi,
Ümüdüm bəxtimə axan selədi,
Bu dünya əzəldən Vahid belədi
Yaxşılar doğulur, yamanla birgə.

## *Bir gün dönəcəyik...*

Bir yandan yağışlar, bir yandan külək,
Yenə hucum çəkib baxçaya, bağa
Yarpaqlar budaqdan tez hürkək-hürkək,
Qopurlar düşürlər qara torpağa.

Bir vaxt ağaclarda qürrələnərdi,
İndisə yarpaqlar ayağım altda,
Bu həyat çeşmə-keş, yaman dərindi,
Hər şeyin sonu var, bu kainatda,

Sevsək, sevməsək də payız fəslini,
Bir gün dönəcəyik, yarpağa biz də.
Bir gün bu əlacsız yarpaqlar kimi
Qopub çoməcəyik, torpağa bizdə.

## *Gedirəm qürbətə...*

Gedirəm ayrılıq qəlbimi dağlar,
yenə yolçusuyam, bir qürbət yolun.
Əlvida dərələr, əlvida dağlar,
Elimdən, yurdumdan muğayat olun.

Gedirəm bu yolun, başqa yolu yox,
Kovrəlir o qədər ürək dalımca.
Neynəyim Vətəndə çorək pulu yox,
Gedirəm qürbətə çörək dalınca

Gedirəm fikirli, yollar uzadı,
Sinəmdə qəm artır, dərd qalaqlanır.
Yaman acı imiş ayrılıq dadı,
Xəyalın kitab tək, hey varaqlanır.

İçimdə qarışıb sevinclə qəhər,
Gedirəm bilmirəm bu yolun sonun
Məni istəyənlər, məni sevənlər,
Gedirəm Allaha əmanət olun.